# ERKƏN NİKAH



www.scfwca.gov.az

Buklet Almaniya Beynəlxalq Əməkdaşlıq Təşkilatı tərəfindən maliyyələşdirilib.

## ERKƏN NİKAH NƏDİR?



**Erkən nikah 18 yaşdan kiçik olan uşaq və ya yeniyetmələrin evlənməsidir.**

Erkən nikahlar özündə uşağın rifahına qarşı ciddi təhlükə yaradır. Təcrübə göstərir ki, bu formada olan nikahlar həm qızlara, həm də oğlanlara təsir edir, uşağın sağlam yaşamaq və inkişaf etmək kimi başlıca fundamental hüquqlarını əlindən alır. Erkən nikaha daxil olmuş qadının uşaqlarına vaxt ayırması və onları daim nəzarətdə saxlaması nəticəsində öz şəxsi həyatına, ictimai inkişafına təsir imkanları azalır və ya tamamilə yox olur.

### Erkən nikahlar bir çox hallarda erkən analıq mənasını verir.

Azyaşlıların evlənməsi nəticəsində onların uşaqlıq dövrü başa çatır və gənc qadının erkən hamiləliyi və uşaq doğumu onun həyatını təhlükə altına atır. Erkən nikahlar zamanı dünyaya gələn körpələrin sağlamlıq imkanlarının məhdud olma və ölü doğulma dərəcəsi artır.

## Erkən nikah uşaqların təhsil alma hüququnu pozur və inkişafına mane olur.

**2%**

**Araşdırmalara əsasən, ərdə olan qızların yalnız 2%-i təhsilinə davam edir.**

Təhsil uşaqların şəxsi inkişafı, həyata hazırlaşması,onların öz ailələrinin və cəmiyyətin rifahına səmərəli töhfə vermələri üçün vacibdir. Erkən nikaha daxil olan əksər yeniyetmə qız təhsilini davam etdirmir, yaxud ən yaxşı halda hal-hazırda oxuduğu təhsil səviyyəsi ilə kifayətlənməli olurlar. Təhsilin yarımçıq qalmasının qız və qadınlar üçün mənfi nəticələri vardır, çünki bu cür vəziyyət onların sosial uyğunlaşma imkanlarını azaldır və onları valideynlərdən və ya ərlərindən tamamilə asılı vəziyyətə salır. Bunun cəmiyyət üçün də mənfi təsiri vardır, belə ki, cəmiyyətin təhsil səviyyəsinin aşağı olması onun inkişafına və rifahına mane olur.

## Erkən nikahların Fəsadları

- Təhsildən yayınma ilə nəticələnir;
- Uşaqlıqdan və təhsildən məhrum edilənlər paralel olaraq şəxsi azadlıqlarını da itirir;
- Erkən nikaha daxil olmuş yeniyetmə qızın sağlamlığında ciddi təhlükə yaranır;
- Uşaq və ana ölümü hallarının artmasına gətirib çıxardır;
- Sağlamlıq imkanları məhdud olan uşaqların doğulmasına səbəb olur;
- Cəmiyyətdə qadının sosial statusuna mənfi təsir göstərir;
- Cəmiyyətin inkişafına əngəl törədir və milli genefonda mənfi təsir edir;
- Məişət zorakılığı hallarının artması;
- İşsiz gənc qadınların sayı artır;
- Tənha gənc anaların sayı artır;
- Psixoloji travmalara səbəb olur;
- Qanundan kənar qalmış şəxsin bir çox hallarda hüquqi müdafiə imkanı olmur.

## Erkən nikahlara əsasən aşağıda qeyd edilən hallar səbəb olur:

- Valideynlər və ya yaxın qohumlar tərəfindən evliliyə təhrik edilmə;
- Mədəni və dini bəraət qazandırma - ənənəvi olaraq zorakılıq faktının qəbul edilməsi və ona adi hal kimi yanaşılması, eyni zamanda minimum yaş həddinin dini ehkamlarla tənzimlənməsi. Qızların əxlaqının qorunması baxımından erkən nikahların əsas rol oynaması stereotipinin hələ də üstünlük təşkil etməsi. Bir sıra bölgələrdə erkən nikahların adət halına çevrilməsi və insanların bu təfəkkür çərçivəsindən çıxa bilməməsi.
- Erkən hamiləlik;
- Məişət və ya cinsi zorakılıq;
- Iqtisadiyyat və yoxsulluq – valideynlər tərəfindən uşağın təbii ehtiyaclarının ödənilməməsi və lazımi iqtisadi vasitələrlə təminatın həyata keçirilməsinin çətinliyinin bəhanə gətirilməsi.
- Digər səbəblər....

## Erkən nikahlar başlıca olaraq insan hüquqlarının pozulması kimi dəyərləndirilməlidir.

**Azərbaycan Respublikasının Konstitusiyasının 34-cü maddəsi "Nikah hüququ"ndan bəhs edir.**

Hər kəsin qanunla nəzərdə tutulmuş yaşa çatdıqda ailə qurmaq hüququ vardır.
Nikah könüllü razılıq əsasında bağlanılır. Heç kəs zorla evləndirilə (ərə verilə) bilməz.

Nikah və ailə dövlətin himayəsindədir. Analıq, atalıq, uşaqlıq qanunla mühafizə edilir. Dövlət çoxuşaqlı ailələrə yardım göstərir.

Ər ilə arvadın hüquqları bərabərdir. Uşaqlara qayğı göstərmək, onları tərbiyə etmək valideynlərin həm hüququ, həm də borcudur.

Valideynlərə hörmət etmək, onların qayğısına qalmaq uşaqların borcudur. 18 yaşına çatmış əmək qabiliyyətli uşaqlar əmək qabiliyyəti olmayan valideynlərini saxlamağa borcludurlar.



## Uşaqların müdafiə hüququ

**Ailə Məcəlləsinin 51-ci maddəsində deyilir:**

- Uşaq öz hüquqlarının və qanuni mənafelərinin müdafiəsi hüququna malikdir.
- Uşağın hüquqlarının və qanuni mənafelərinin müdafiəsi valideynlər (onları əvəz edən şəxslər), bu Məcəllə ilə nəzərdə tutulmuş hallarda isə müvafiq icra hakimiyyəti orqanı və məhkəmə tərəfindən həyata keçirilir.
- Qanunvericiliyə uyğun olaraq yetkinlik yaşına çatana qədər tam fəaliyyət qabiliyyətli hesab edilən şəxslər öz hüquq və vəzifələrini, o cümlədən müdafiə hüququnu müstəqil həyata keçirirlər.
- Uşağın valideynləri (onları əvəz edən şəxslər) tərəfindən sui-istifadə etmə hallarından müdafiə olunmaq hüququ vardır.
- Uşağın hüquqları və qanuni mənafeləri pozulduqda, o cümlədən valideynləri (onlardan biri) uşağın təhsili, tərbiyəsi üzrə vəzifələrini yerinə yetirmədikdə və ya valideynlik hüquqlarından sui-istifadə etdikdə, uşaq öz hüquqlarını qorumaq üçün müvafiq icra hakimiyyəti orqanına, 14 yaşına çatdıqda isə məhkəməyə müraciət etmək hüququna malikdir.

## Ailə Məcəlləsinin 60-cı maddəsində deyilir:

- Valideynlik hüquqları uşaqların mənafeyinə zidd həyata keçirilə bilməz.
- Valideynlik hüquqlarını həyata keçirərkən valideynlər uşaqların mənəvi inkişafına, fiziki və psixi sağlamlığına xələl yetirməməlidirlər.
- Uşaqların tərbiyəsində onların istismarına, təhqir edilməsinə, mənəviyyatının alçaldılmasına, qəddarlığa, kobudluğa, biganəliyə yol verilə bilməz.
- Valideynlik hüquqlarını həyata keçirərkən uşaqların hüquq və mənafelərinə ziyan vuran valideynlər qanunvericiliklə müəyyən olunmuş qaydada məsuliyyət daşıyırlar.
- Uşaqların tərbiyə və təhsilinə aid olan bütün məsələlər uşaqların hüquq və mənafeləri, onların rəyi nəzərə alınmaqla, valideynlərin qarşılıqlı razılığı əsasında həll olunur. Valideynlər (onlardan biri) öz aralarında olan narazılığı həll etmək üçün müvafiq icra hakimiyyəti orqanına və ya məhkəməyə müraciət edə bilərlər.

## Nikah yaşı

Azərbaycan Respublikasının Ailə Məcəlləsinin 10-cu maddəsinə görə nikah yaşı 18 yaşdır.

Üzürlü səbəblər olduqda, nikaha daxil olmaq istəyən və nikah yaşına çatmamış şəxslərin yaşadıqları ərazinin müvafiq icra hakimiyyəti orqanı onların xahişi ilə nikah yaşının 1 ildən çox olmayaraq azaldılmasına icazə verə bilər.



## Nikahın bağlanma şərtləri

Ailə Məcəlləsinin 11-ci maddəsinə görə nikahın bağlanması üçün nikaha daxil olan şəxslərin yazılı razılığı, tibbi müayinədən keçdiklərini təsdiq edən arayışın təqdim edilməsi və onların nikah yaşına çatmaları zəruridir.

**Azərbaycan mədəniyyətində, dini dəyərlərdə, qanunvericilikdə məcburi nikah yol verilməzdir. Vətəndaş (istər qadın, istərsə də kişi) heç bir halda yeni yetkinlik yaşına çatmadığı və digər yaşlarda belə nikaha məcbur edilə bilməz.**

Azərbaycan Respublikası Cinayət Məcəlləsi Maddə 152. - On altı yaşına çatmayan şəxslə cinsi əlaqədə olma və ya seksual xarakterli digər hərəkətlər etmə

- on altı yaşına çatmayan şəxslə cinsi əlaqədə olma və ya seksual xarakterli başqa hərəkətlər etmə — üç ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.
- Eyni əməllər 14 yaşına çatmayan şəxs barəsində törədildikdə- üç ildən altı ilədək azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

**Azərbaycan Respublikası Cinayət Məcəlləsi Maddə 176.- Qadını nikaha daxil olmağa məcbur etmə**

- Qadını nikaha daxil olmağa məcbur etmə iki min manatdan üç min manatadək miqdarda cərimə və ya iki ilədək azadlıqdan məhrum etmə
- Eyni əməllər nikah yaşına çatmayan şəxs barəsində törədildikdə üç min manatdan dörd min manatadək miqdarda cərimə və ya dörd ilədək azadlıqdan məhrumetmə